# Bəs niyə göz yaşımı hey axıdıb, seyr edir?



■ Əli Əmirov (Ələmi)

Gülzardə çılğın yel əsirdi, yel əsirdi!
Ürkmüşdü, budaqda gül əsirdi! Gül əsirdi!

Qucmuşdu o titrək beli bu sevgili əllər,
Əllərmi əsirdi, bel əsirdi? Bel əsirdi!

Məst olmuş idim saçlarının rayihəsindən,
Öpdükcə üzümdən tel əsirdi! Tel əsirdi!

Bir söz demək istərdi zərif ləblərə ləblər,
Yandıqca dodaqlar, dil əsirdi! Dil əsirdi!

Biz sirrimizi saxlamaq üçün sözə gəldik,
Qalmır ki, dilində... Belə sirdi? Belə sirdi?

Lənət mənə, neyçün o gülün xətrinə dəydim?
Bəh-bəh! Yanağında sel əsirdi! Sel əsirdi!

Qurban eləyərdim bütün ömrü bir an üçün,
Əfsus ki, yarım tələsirdi! Tələsirdi?

Gülzardə oldum, Ələmi, mən gül əsiri,
Qəlbimdə mənimsə gül əsirdi! Gül əsirdi!

* * *

Çəkdim ömrüm boyu, yarım qəmi bir gün çəkdi,
Könlümün olmadı yar həmdəmi, bir gün çəkdi.

Buna da şükr eləyib, dərdinə qurban oluram,
Tapdı imkan hələ ki, məlhəmi bir gün çəkdi.

Yandı əğyar görüb, xoş günümü, dözmədi heç,
Düşəcək bundan ağır dərdəmi?! Bir gün çəkdi!

Bir zamanlar nə gözəl, ah nə şirin dəmlər idi,
Cəmlədim dəmləri gördüm cəmi bir gün çəkdi.

Dedilər, nazına aludə olub yalvarma,
Görəcəksən ki, onun çəm-xəmi bir gün çəkdi.

İstədim rəsmini bir gün gülərüz dilbərimin,
Çəkdi göy qübbəsin orda həmi bir gün çəkdi.

Rəsmdə çəkmədin ey gül qəmi-hicranı neçün?
Çəkdi tez gül ləçəyin, şəbnəmi bir gün çəkdi.

Dedim, aləmdə çəkib car, xəcil etmə məni,
Dözmədi, yığdı bütün aləmi bir gün, çəkdi.

Mən özüm yaxşı bilirdim ki, nədir məkri-zənən,
Kimdi kim, əyri yola Adəmi bir gün çəkdi?

Görməsin qüssə o gözlər, Ələmi, şükr elə ki,
Çəkdim ömrüm boyu, yarım qəmi bir gün çəkdi!

* * *

Mən olam, sevgili yarım, arada incə təbəssüm,
Yaraşır vallah, əzizim, qocaya, gəncə təbəssüm!

Arabir eylə təmaşa gülərüz güllərə, ey gül,
Nə olar ey ləbi qönçə, eləsən səncə, təbəssüm?!

Duyan hər qəlbə açardır, yeri varsa dodağında,
Sözünü söyləməmişdən edəsən öncə təbəssüm!

Olunar əfv günahın, gülərüzlə de: "bağışla!"
Gözəlim, güclü silahdır, deyil əyləncə təbəssüm!'

Qızarıbdır o ləçəklər, yumulub qönçə dodaqlar,
Deyərəm bircə şirin söz, edər hər qönçə təbəssüm!

Baxır heyhat mənə gendən, nə üçün beylə çəkingən,
Utanıb yoxsa ki, məndən, sıxılıb küncə təbəssüm?!

Ələmi, bax o pərinin ləbinə çox da yaraşmış,
Demədikcə mənə xoş söz, verər işkəncə təbəssüm!

* * *

Alt-üst eləyibdir yenə hər yanı Züleyxa,
Sevmiş elə bil, Yusifi Kənanı Züleyxa!

Bu sevgi deyil ki, elə şəhvət meyidir bil,
Sərməst eləyir nəfsi çox insanı, Züleyxa.

Vaxt ötməlidir, Yusifini anlamaq üçün,
Tez başlamısan çəkməyə əfğanı, Züleyxa.

Yığma başına aləmi, Yusifmi günahkar,
Kimdir tökən əllərdəki al qanı, Züleyxa?

Etmirsən özün canı fəda eşq yolunda,
Bildin niyə layiq bizə zindanı, Züleyxa?

Söz yox ki, gözəl, duyğulu insansan, əzizim,
İncitməyirəm sevdiyim insanı, Züleyxa!

Bir sirr olacaq, bir daşı altda, biri üstdə,
Əfsanəyə döndərmə bu dövranı, Züleyxa!
Öz yarının ancaq Ələmi vurğunudur, bil,
Gen dur hələ, sən Yusifinin canı, Züleyxa!

* * *

Başlasın atəşfəşanlıq, göylər əlvan rəngdir!
Rəqs edir göy dalğalar, bir ayrı cür ahəngdir!

Səsləsin hər bir kəsi: "meydanə gəl!" - surun səsi!
Sanki, bu məhşər ayağın bildirən son zəngdir!

Cəngi çal, qoy qəhrəmanlar yallı getsin şövq ilə,
Çün Vətən torpağın azad eyləyən bil, cəngdir.

Ey ahıl, həm ey əlil, yatma qoşul dur şənliyə,
Qol götür, oyna atıl nolsun, nəfəsin təngdir!

Həm şəhid qanın bu gün vəsf eyləyək meyxanədə,
Qan kimi al-qırmızı saqi, meyin pürrəngdir!

Qoy zəfərlər müjdəmiz dünyanı alt-üst eyləsin,
Hey çığırsın düşmənim: "batmış qulağım, dəngdir!"

Ələmi, çin çıxsın arzum, Allahımdan səs gələ:
Başlasın atəşfəşanlıq, göylər əlvan rəngdir!

* * *

Verdi "İrəli!" - əmri komandan, igid əsgər!
Sıyrıldı qılınclar kimi qından igid əsgər!

Artıq o Vətən torpağı sənsiz dözə bilmir,
Hayqır, daha qurtar onu dardan, igid əsgər!

Düşmən başın əz, qoy dizin altında gəbərsin,
Rəhm eyləmə, et qanına qəltan, igid əsgər!

Şövq ilə zəfər bayrağı qaldır Qarabağda,
Öpsün gözünü Azərbaycan, igid əsgər!

Can qoydu şəhidlər ana torpaq qucağında,
Qucdu ana torpağ, dedi: "can-can, igid əsgər!"

Gözlər səni həsrət qoxulu gül-çiçək ilə,
Ağbirçək anan, sevgili canan, igid əsgər!

Həmrəyliyimiz indi gərəkdir, Vətənimdə
Ruhən ucalıb olsun hər insan igid əsgər!

Yazsın qələbə marşı, könüllərdə səninlə
Qalsın Ələmi adlı qəzəlxan, igid əsgər!

* * *

Nola, kaş xəlqimizə bircə, zəfər qismət ola!
O əsir torpağıma bir də səfər qismət ola!

Başlaya çal-çağıra, el-oba əlvan geyinə,
Öz zəfər bayramın istər nə təhər, qismət ola!

Əsə əvvəlki kimi badi-səba, müjdə verə,
Fərəhimdən coşa qəlbim də, qəhər qismət ola.

O şəhidlər, qanı ilə suvaran toprpağda,
Yetişər, əsl igidlər, bu bəhər, qismət ola.

Özgələr malına kəc baxmadıq, aləm də bilir,
Xainə, acgözə, layiqdi, zəhər qismət ola!

Etdi bərbad o bayquş nə qədər kəndimizi,
Edərik hər yeri abad şəhər, qismət ola!

Vətənim barlı, bəhərli, adı odlar diyarı,
Qalmasın ondan uzaq bircə nəfər, qismət ola.

Ələmi gördü bu niyyət gecəsində yuxusun,
Səhər olsun, gələcək böylə zəfər, qismət ola!

* * *

Dərdimi yarım mənim gah bilir, gah yox,
Mən dediyim mətləbə gah gəlir, gah yox.
Bəs niyə göz yaşımı hey axıdıb, seyr edir?
Gör necə də zövq alır, gah silir, gah yox!
İstəyirəm ləblərin nazlı təbəssümlərin,
Gülsə də şirin-şirin, gah gülür, gah yox.

Gözlərini gizlədir, küsdümü yarım yenə?
Bağrımı müjgan oxu gah dəlir, gah yox.

Mən səninəm, sən mənim, bölmə, dedim, vahidik,
Zülm eləyir, vahidi gah bölür, gah yox.

Bil, Ələmi yarına canı fəda eyləyər,
Başın itirmiş yazıq,.. gah ölür, gah yox.

* * *

Düz əməlli şair azdır bu qədər yazan içində,
Söz özü çaşıb, qalıbdır bu yazan-yozan içində.

Bu təamda ləzzət olmaz, sözü gər bişirmiriksə,
Nə bilim nə qaynadırlar içi boş qazan içində.

Kimininsə sinəsində utanır o saz, dil açmır,
Sazı yox bu kimsəninsə, oxuyur ozan, içində.

Sözü öldürüb, düşünmə, tək onu məzarə qoydun,
Bu məzarə diqqət eylə, yatıb həm qazan, içində.

Yolunu azan nə çoxdur, azıram özüm də hərdən,
Özümü tapım gərək mən bu qədər azan içində.

Qarışıb fəsillər artıq, pozulub nizam, ilahi,
Baxır ol bahar nəfəslim, üşüyür xəzan, içində.

Söz ilə edir ibadət, Ələmi verir şəhadət,
Görüşə gedir nəhayət, oxuyur əzan, içində.

* * *

İllər necə keçdi, nə bilim,.. on ilimizdi!
Hər bir günü, hər bir saatı nisgilimizdi.

Çox arzum, ümidim həmin anda daşa döndü,
Başdaşın, əzizim, bil ümid sahilimizdi.

Yox başıma əl çəkməyə kimsə, sən həvəsdə,
Olmaz da,.. elə öz başımız, öz əlimizdi.

Qapqarə idi saçlarımız ağ günümüzdə,
Əsl indi qara günlü, ağarmış telimizdi.

Tər gülləri indi düzərəm sinənin üstə,
Qoyma ki, toxunsun kim isə, özgülümizdi!

Fatihə və Yasin oxuyum şer əvəzində,
Bu, əcnəbi dildə, çox heyif, müşkülümizdi.

Mənsiz bilirəm, çox darıxırsan ki, gecikdim,
Səbr eylə, bu dünyada bu son mənzilimizdi.

- Söhbət eləyirsən, Ələmi, gizli, kiminlə?
- Eh, kim olacaq ki, öz halal sevgilimizdi!

* * *

Nə olub, de, o baxışlar niyə süzgündü, gül üzlüm?
Gözlərin tökdü yağışlar deyə, üzgündü, gül üzlüm?

Niyə halın de, pərişan, niyə küsdün yenə yardan?
Gözümə bax, sənə qurban, axı güzgündü, gül üzlüm.

De, təbəssümlü dodaqlar hanı, qəlbim ki, qan ağlar?!
Bir şirin busə soraqlar, neçə yüz gündü, gül üzlüm.

Razıyam, naz elə hərdən, sıxılıb, sınma kədərdən,
Dərdi ver, mən çəkərəm, mən, belə düzgündü, gül üzlüm.

Ələmini dilə çəksən, nə dilər, tez biləcəksən,
Ona bəs neyləyəcəksən, o da küskündü, gül üzlüm.